**“Bələdiyyə seçkilərində seçki fondlarına daxil olmuş pul vəsaitlərinin geri qaytarılması qaydaları haqqında Təlimat”a dəyişikliklər edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

“Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 18 iyun 2010-cu il tarixli Qanunu ilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin bəzi müddəalarına dəyişikliklər edilmişdir. Bununla əlaqədar olaraq Mərkəzi Seçki Komissiyasının qüvvədə olan müvafiq normativ xarakterli aktları həmin Qanuna uyğunlaşdırılmalı və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.1-ci və 75.2-ci maddələrinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 9 dekabr 2011-ci il tarixli 15/50 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən normativ xarakterli aktların hazırlanması və qəbul edilməsi Qaydaları”nın 3.4-cü bəndinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 24 avqust 2009-cu il tarixli 23-6 saylı Qərarı ilə təsdiq edilmiş “Bələdiyyə seçkilərində seçki fondlarına daxil olmuş pul vəsaitlərinin geri qaytarılması qaydaları haqqında Təlimat”a aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədən ”229” rəqəmi çıxarılsın.

1.2. 8-ci hissə aşağıdakı redaksiyada verilsin:
“Seçki Məcəlləsinin 230-cu maddəsində və bu Təlimatın 5-ci bəndində nəzərdə tutulmayan qeydə alınmış namizəd yekun maliyyə hesabatının verilməsi ilə yanaşı müvafiq vəsaitin qaytarılmasını da öz üzərinə götürürsə, bələdiyyə büdcəsinin geri qaytarılası vəsaitini səsvermə günündən başlayaraq 6 ay müddətində müvafiq bələdiyyənin hesabına qaytara bilər”.

1.3. 9-cu hissədə “Məcəllə” sözü “Seçki Məcəlləsi” sözləri, “vəsaitlərin” sözü isə “vəsaitinin” sözü ilə əvəz edilsin, “Mərkəzi Seçki Komissiyası, ictimai”, “dövlət və” sözləri çıxarılsın.

2. Təlimat edilmiş dəyişikliklərlə birlikdə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün qanunla müəyyən edilmiş müddətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |